# Azəbaycanın ən yeni tarixi dram əsərində

## Yazıçı-dramaturq, dövlət xadimi Hidayət Orucovun "Burdan min atlı keçdi (ikihissəli tarixi dram)" pyesi haqqında düşüncələr




Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrı 2021-2022-ci il teatr mövsümündə tanınmış yazıçı-dramaturq, dövlət xadimi Hidayət Orucovun **"Burdan min atlı keçdi (ikihissəli tarixi dram)" pyesini** tamaşaya qoyub. Hidayət müəllim qədim Azərbaycan torpağı Zəngəzurda dünyaya göz açıb və şəxsən onu tanıdığım və yaradıcılığına bələd olduğum üçün, əsərin məzmunu ilə tanış idim və onun milli tariximizin ən yeni dövrünün hadisələrinə həsr edildiyini bilirdim. Bu əsərin səhnədə aktyorların təqdimatında görmək, bu dövrü tədqiq edən bir tədqiqatçı kimi mənim üçün çox maraqlı idi. Müəllifin əsərlərinin ana xəttini vətənpərvərlik təşkil etdiyindən bu dram əsərində də milli tariximizin ən yeni dövrünün doğru-düzgün və obyektiv təqdim ediləcəyinə əmin idim.

Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrının repertuarına daxil edilmiş tanınmış yazıçı-dramaturq, dövlət xadimi Hidayət Orucovun "Burdan min atlı keçdi (ikihissəli tarixi dram)" pyesinə Səməd Vurğun adına Rus Dram Teatrının səhnəsində baxdım. Tamaşa ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu illiyinə həsr olunmuşdu. İki hissədən ibarət olan bu tarixi dram əsərində Azərbaycanda və o cümlədən bütün Cənubi Qafqazda XX əsrin II yarısı - XXI əsrin əvvəlində baş vermiş ictimai-siyası proseslər əks olunmuşdur. İctimai-siyasi proseslərin şahidi və iştirakçısı olan müəllif əsərdə baş verən hadisələri olduğu kimi təqdim etmişdir. Müəllifin gənc ikən XX əsrin 70-ci illərində İrəvan Azərbaycan Dövlət Dram Teatrına direktor təyin edildikdən sonra İrəvanda Ermənistan SSR rəhbərləri ilə keçirdiyi görüşlər zamanı hər addımda qarşılaşdığı düşmən münasibət, teatr üçün binanın ayrılmaması, işə qəbul edilən aktyorlar üçün mənzillərin verilməməsi kimi məsələlər incəliklə ərsəyə gətirilir.

Əsərin birinci pərdəsində Heydər Əliyevin Azərbaycan SSR rəhbəri seçildikdən sonra Ermənistanda yaranan təşviş, Ermənistan KP MK birinci katibi Koçinyanın tanış olmaq bəhanəsilə ona zəng edərək İrəvana dəvət etməsi, lakin buna cavab olaraq Heydər Əliyevin Azəbaycan SSR-in Ermənistanla sərhəd olan Qazax rayonu ərazisində görüşün keçirilməsini təklif etməsi və görüşün keçirilməsi zamanı A.E.Koçinyanın Azərbaycan SSR-in keçmiş rəhbərliyi ilə razılaşdırılmış yeni ərazilərin Ermənistan SSR tərkibinə verilməsi qərarının təsdiq edilməsi məsələsini qaldırması və bu təklifin Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilməsi və bununla bağlı A.E.Koçinyanın Sov.İKP MK katibi M.A.Suslova şikayət etməsi və rədd cavabı alması məsələləri tarixi-xronoloji ardıcıllıqla verilmişdir. Müəllifin şahidi olduğu və qələmə aldığı mühüm tarixi hadisələrdən biri də ümummilli lider Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosuna üzv seçilməsinin və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilməsinin Ermənistanda necə qorxu və bədbin əhvali-ruhiyyə yaratmasıdır. Səhnəyə qoyulan bu bədii əsərdə həmin hadisələr bütün təfərrüatı ilə təqdim edilmişdir. Erməni nasist ideoloqlarının bu hadisədən sonra Azərbaycan xalqını, onun liderini ləkələmək üçün hansı çirkin və cinayətkar üsullara əl atdıqlarına da müəllif əsərdə yer vermişdir. Əsərdə 1987-ci ildə Heydər Əliyevin SSRİ dövləti rəhbərliyindən uzaqlaşdırılmasından sonra mərkəzi hökumətin birbaşa razılığı ilə erməni faşizminin Azərbaycan xalqına qarşı daha ağır təcavüzkar mövqedən çıxış etməsinə başlaması və Qarabağın dağlıq hissəsinin Ermənistan SSR tərkibinə verilməsi tələbinin irəli sürülməsi və o zaman Azərbaycan SSR rəhbəri K.M.Bağırovun qətiyyətsizlik göstərməsi hadisələri çox canlı şəkildə təqdim edilir.

Mən tamaşaya baxdıqca çox təcrübəli aktyorların ifasında yuxarıda qeyd etdiyim bütün hadisələr gözümün önünə gəldi və etiraf edim ki, o zaman yaşadığım həyatı elə bil yenidən yaşadım. Lakin deməliyəm ki, ikipərdəli bu tarixi dram əsəri çox böyük nikbinliklə başa çatır. Müəllif əsərdə Sovet imperiyasının süqutu, ulu öndərin Vətənə dönməsi və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası, onun yeni, demokratik, hüquqi və dünyəvi milli dövlət quruculuğu işinə rəhbərlik etməsi və 30 illik erməni faşizmi işğalına Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəbərliyi ilə son qoyulması məsələlərini tarixi-xronoloji ardıcıllığı gözləməklə bütün bu hadisələri çox ustalıqla verməyə nail olmuşdur. Hesab edirəm ki, yazıçı-dramaturq Hidayət Orucovun "Burdan min atlı keçdi (iki hissəli tarixi dram)" pyesini cəsarətlə Azərbaycanın ən yeni tarixinin aynası, tarixi həqiqətləri əks etdirən qiymətli bir bədii dram əsəri kimi təqdim və təbliğ etmək olar. Bu gənc nəslin milli və vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayacaq.

**Cəbi BƏHRAMOV,**
**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun icraçı direktou,**
**t.ü.f.d., dosent.**